**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELYASİYA ŞURASI**

**Q Ə R A R**

**№3**

**Bakı şəhəri** **24 sentyabr 2020-ci il**

Apelyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apelyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Nicat Yaşar oğlu Həsənovun Bakı şəhəri Statistika İdarəsinin Ticarət statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il 21 iyul tarixində keçirilən müsabiqənin müsahibə nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Bakı şəhəri Statistika İdarəsinin Ticarət statistikası sektorunda baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 13 yanvar tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 21 iyul 2020-ci il tarixində Bakı şəhəri Statistika İdarəsinin İnsan resursları, hüquq və sənədlərlə iş sektorunun müdiri Telman Quliyev, Dövlət İmtahan Mərkəzinin Dövlət qulluğu məsələləri şöbəsinin böyük məsləhətçisi Akif Bayramov, müstəqil ekspert Zöhrab İbrahimovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Nicat Həsənova müsahibə komissiyasının üzvlərindən Telman Quliyev və Zöhrab İbrahimov 15 bal, Akif Bayramov isə 13 bal vermiş və nəticədə iştirakçı 14.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 22.07.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apelyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi A.Bayramovun rəyinə əsasən namizəd ümumi proqram üzrə verilən sualların bir qismini düzgün cavablandırmış, dünyada və ölkədə baş vermiş mühüm hadisələrə dair verilən suallara natamam cavab vermişdir. Namizədin təkmilləşmə potensialı var. Müstəqil ekspert Zöhrab İbrahimovun rəyinə əsasən namizədin müsahibə üzrə bilik səviyyəsi və nəzəri bilikləri qənaətbəxşdir, lakin cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılıq səviyyəsi zəifdir. Müsahibə komissiyasının digər üzvü Telman Quliyev bildirmişdir ki, namizəd müsahibə zamanı onun tərəfindən verilən suallara düzgün cavab vermişdir.

Yuxarıda göstərilənlər və Apelyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apelyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Həsənov Nicat Yaşar oğlunun Bakı şəhəri Statistika İdarəsinin Ticarət statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il iyulun 21-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**